# Fərdi təhsil üzrə nümunəvi tədris planının təsdiqi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Uzun müddət təhsildən kənarda qalmış şəxslərin fərdi təhsilinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1 və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Uzun müddət təhsildən kənarda qalmış şəxslərin ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilinə aid 2019-2020-ci dərs ili üçün tədris planı və tədris planına dair "Qeydlər" təsdiq edilsin (1, 2 və 3 nömrəli əlavələr).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının**
**Təhsil naziri**

*12 iyul 2019-cu il*

---

*Azərbaycan Respublikası Təhsil nazirinin 12.07.2019-cu il tarixli, F-442 nömrəli əmrinə 1 nömrəli əlavə*

### 2019-2020-ci dərs ili üçün ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilin nümunəvi tədris planı

*(tədris Azərbaycan dilində)*

| № | Fənlər | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII |
| 1. | Azərbaycan dili | 4 | 4 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2. | Ədəbiyyat | | | | | 1 | 1 | 1 | 1 |
| 3. | Riyaziyyat | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 | 3 |
| 4. | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 5. | Həyat bilgisi | 1 | 1 | 1 | 1 | | | | |
| 6. | Azərbaycan tarixi | | | | | 1 | 1 | 1 | 1 |
| 7. | Coğrafiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 8. | Fizika | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 9. | Kimya | | | | | | | 0,5 | 0,5 |
| 10. | Biologiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| | **Cəmi:** | **8** | **8** | **8** | **8** | **9** | **10,5** | **11** | **11** |

*Azərbaycan Respublikası Təhsil nazirinin 12.07.2019-cu il tarixli, F-442 nömrəli əmrinə 2 nömrəli əlavə*

### 2019-2020-ci dərs ili üçün ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilin nümunəvi tədris planı

*(tədris rus dilində)*

| № | Fənlər | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII |
| 1. | Rus dili | 4 | 4 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2. | Ədəbiyyat | | | | | 1 | 1 | 1 | 1 |
| 3. | Azərbaycan dili (dövlət dili kimi) | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 4. | Riyaziyyat | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 | 3 |
| 5. | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 6. | Həyat bilgisi | 1 | 1 | 1 | 1 | | | | |
| 7. | Azərbaycan tarixi | | | | | 1 | 1 | 1 | 1 |
| 8. | Coğrafiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 9. | Fizika | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 10. | Kimya | | | | | | | 0,5 | 0,5 |
| 11. | Biologiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| | **Cəmi:** | **10** | **10** | **10** | **10** | **11** | **12,5** | **13** | **13** |

*Azərbaycan Respublikası Təhsil nazirinin 12.07.2019-cu il tarixli, F-442 nömrəli əmrinə 3 nömrəli əlavə*

## Tədris planına dair qeydlər

**1.** Bu tədris planı Azərbaycan Respublikası Təhsil nazirinin 29.05.2014-cü il tarixli, 645 nömrəli əmri ilə təsdiq edilmiş "Fərdi təhsilin təşkili haqqında Qaydalar"a uyğun olaraq, uzun müddət təhsildən kənarda qalmış şəxslərin təhsilinin təşkilini tənzimləyir.

**2.** Tədris planına daxil edilən fənlər üzrə proqramlar nəzərdə tutulan həftəlik dərs saatlarının miqdarına uyğun olaraq, ən zəruri bilik və bacarıqların mənimsədilməsi təmin edilməklə müvafiq ümumi təhsil proqramları əsasında aidiyyəti fənn müəllimlərinin iştirakı ilə təhsil şöbəsinin (idarəsinin) metodkabineti tərəfindən hazırlanıb təsdiq olunur.

**3.** Tədris planı üzrə dərslər həftədə 4 (dörd) gün təşkil edilir. Dərs məşğələlərinin müddəti 45 dəqiqədir.

**4.** Dərs saatı həftədə 0,5 saat olan fənlər dərs cədvəlində qeyd edilməklə həftəaşırı tədris olunur.

**5.** Fərdi təhsilə cəlb olunmuş şəxslər dərs ili ərzində müəyyən edilmiş tətillərə ümumtəhsil məktəb şagirdləri ilə eyni vaxtda buraxılırlar.

Azərbaycan müəllimi.- 2019.- 19 iyul.- S.6.